20 avqust 2021-ci il
№31 (8939)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

**Təhsil millətin gələcəyidir!**
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

# İkinci Qarabağ müharibəsi tarixi Zəfərimizdir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 16-da Kəlbəcər və Laçın rayonlarında olublar

**...İndi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir...**

İkinci Qarabağ müharibəsi, bir daha demək istəyirəm, tarixi Zəfərimizdir. Azərbaycanın çoxəsrlik tarixində buna bənzər qələbə olmamışdır. Müharibə ilə bağlı artıq kifayət qədər məlumatlar var və təkrar etmək istəmirəm. Müharibənin gedişatı hər kəsə məlumdur. Sadəcə olaraq, indi bizim dərsliklərimizdə, elmi əsərlərdə, məqalələrdə, kitablarda müharibə ilə bağlı və müharibədən əvvəlki dövrlə bağlı çox müfəssəl və geniş məlumat verilməlidir ki, biz bu tarixi olduğu kimi qeyd edək, bu tarixi olduğu kimi yazaq və gələcək nəsillər də daim bunu bilsinlər və unutmasınlar, o cümlədən erməni vəhşiliyini unutmasınlar.



**“Əldə etdiyim bilik və bacarıqlardan çox faydalandım”**

➪ səh.2



**Peşəni seç, uğur qazan**

➪ səh.3



**Müəllimlərin işə qəbulu üzrə müsabiqədə son mərhələ - müsahibə gedir**

➪ səh.4

## "WorldSkills Asia - 2021" yarışlarının bağlanış mərasimi keçirilib




"WorldSkills Asia" tərəfindən 13 bacarıq istiqaməti üzrə 26 müxtəlif ölkədən olan 122 müsabiqəçinin və 185 mütəxəssisin iştirakı ilə onlayn formatda keçirilən beynəlxalq bacarıq yarışına yekun vurulub. "WorldSkills Azerbaijan" platforması qismində ilk dəfə Azərbaycanın təmsil olunduğu beynəlxalq bacarıq yarışlarında "Veb dizayn və proqramlaşdırma" və "Kiber təhlükəsizlik" istiqamətləri üzrə müvafiq olaraq mübarizə aparan müsabiqəçilər Kamil Səlimli və Hüseyn Qəmbərov uğurla iştirak edib, eləcə də beynəlxalq sertifikatla təltif olunublar.

"Kiber təhlükəsizlik" istiqaməti üzrə təmsilçimiz Hüseyn Qəmbərov "Məlumat sızmasının qarşısının alınması" kateqoriyası üzrə ən yaxşı nəticə göstərib və ümumi sıralamada 4-cü yeri tutub.

Hər iki təmsilçi ötən ay müvafiq bacarıq istiqamətləri üzrə ölkə səviyyəsində keçirilmiş yarış və seçim turunda yüksək nəticə göstərməklə beynəlxalq yarışda iştirak etmək hüququ qazanıb.

Sözügedən yarışda təmsilçilik "WorldSkills" çətiri altında təşkil olunacaq gələcək bacarıq yarışlarında iştirak üçün əhəmiyyətli təcrübə hesab olunur, eləcə də müsabiqəçilərin bu qəbildən olan yarışlara hazırlıq səviyyəsinin yoxlanılması üçün mühüm rol oynayır.

Qeyd edək ki, Azərbaycan gələn ilin oktyabr ayında Çinin Şanxay şəhərində keçiriləcək "WorldSkills" hərəkatının ən ali tədbiri olan "Shanghai2022" bacarıq olimpiadasında üç bacarıq istiqaməti üzrə təmsil olunacaq.

"WorldSkills Azerbaijan" peşəkarlığın və bacarıqların inkişafı üçün milli platformadır. Azərbaycan ötən ilin oktyabr ayında peşə bacarıqlarını beynəlxalq səviyyədə təbliğ edən "WorldSkills" hərəkatına qoşulub. Dünyada müxtəlif bacarıq istiqamətləri üzrə olimpiya yarışlarının təşkilatçısı kimi tanınan "WorldSkills" hərəkatı əmək bazarının tələblərinə və qlobal standartlara uyğun peşəkarlar yetişdirmək, həmin standartları təhsil sisteminə inteqrasiya etmək imkanı yaradır.

**"WorldSkills Asia - 2021" müsabiqəsində "Kiber təhlükəsizlik" istiqaməti çərçivəsində "Məlumat sızmasının qarşısının alınması" kateqoriyası üzrə ən yaxşı nəticə göstərmiş və ümumi sıralamada 4-cü yeri tutmuş təmsilçimiz Hüseyn Qəmbərovla müsahibəni oxucularımıza təqdim edirik.**



# "Əldə etdiyim bilik və bacarıqlardan çox faydalandım"

## "WorldSkills Asia - 2021" müsabiqəsinin "Kiber təhlükəsizlik" istiqaməti üzrə müvəffəqiyyət qazanan Hüseyn Qəmbərovun uğur hekayəsi

*- İlk növbədə sizi "WorldSkills Asia - 2021" müsabiqəsində qazandığınız uğur münasibətilə təbrik edir, gələcəkdə daha böyük nailiyyətlər arzulayıram. Oxucularımıza özünüz haqqında qısa məlumat verin.*

- Təbrikinizə görə minnətdaram. Mən orta təhsilimi 160 saylı Klassik Gimnaziyada almışam və 2018-ci ildə məktəbi fərqlənmə attestatı ilə bitirmişəm.

*- Gəlin, məktəb illərinə səyahət edək. Necə şagird olmusunuz, sevdiyiniz fənlər hansılar olub, məktəb illərində hər hansı yarış və olimpiadalarda iştirak etmisinizmi?*

- Məktəb illərində bütün fənləri eyni səviyyədə oxumuşam. Amma təhsil müddətində texniki fənlərə marağım həmişə daha yüksək olub, əsasən də riyaziyyat və informatika dərslərinə. Oxuduğum müddətdə müxtəlif bilik yarışmalarına qatılmışam, məktəbimi uğurla təmsil etmişəm. Ən uğurlu nailiyyətlərimdən biri 2018-ci ildə informatika fənni üzrə Respublika Fənn Olimpiadasının final mərhələsində gümüş medal qazanmağım idi. Həmçinin 2018-ci ildə təhsilimi yüksək nailiyyətlərlə başa vurduğuma görə Təhsil Nazirliyinin "Təşəkkürnamə"si ilə təltif olunmuşam.

*- İxtisas və ali məktəb seçiminiz haqqında nə deyə bilərsiniz? Bu sahəyə maraq sizdə haradan qaynaqlanır?*

- Məktəb illərində kompüter elmlərinə çox böyük maraq göstərmişəm və bu marağın yaranmasında professor Ramin Mahmudzadənin çox böyük əməyi var. Mən məktəbi bitirəndə qəti qərara gəlmişdim ki, gələcəyimi kompüter elmlərinə həsr edəcəyəm. Qəbul imtahanlarında 660 bal toplayaraq Bakı Ali Neft Məktəbinə qəbul oldum. Bu, mənim bilik və bacarıqlarımın inkişafına daha da böyük təkan verdi. Seçimimə gəldikdə isə mən əmin idim ki, bu ali təhsil ocağının mənim gələcək inkişafımda çox böyük bəhrəsi olacaq. Universitetdə oxuduğum müddətdə də fərqli yarışmalarda iştirak etmişəm. Onlardan ən yadda qalanları 2018-ci ildə universitet komandası ilə ACM IC-PC Regional Semifinals Beynəlxalq Tələbələrarası İnformatika Olimpiadasının yarımfinal turunda uğurlu iştirakım, həmçinin ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş tələbələrin ilk elmi-texniki konfranslarında şəxsi layihəm ilə ikinci yerə nail olmağım idi.

*- "WorldSkills Asia - 2021" müsabiqəsində iştirak etməyə necə qərar verdiniz və bu müsabiqəyə qatılmaqda sizin üçün əsas motivasiya nə oldu?*

- Mənim düşüncəmdə informasiya təhlükəsizliyi kompüter elmlərinin ən vacib qollarından biridir. Çünki informasiya təhlükəsizliyi mühəndisləri işlətdikləri hər bir sistemi əsaslarına qədər anlamalıdırlar. 2019-2020-ci illərdə Azərbaycan Respublikası Təhsil İnstitutunun direktoru olan Emin Əmrullayevin təşəbbüsü ilə təşkil olunan "Kibertəhlükəsizliyin əsasları" adlı proqramda iştirak edərək bu sahədə çox böyük təcrübəyə malik Miraqşin Abutalıbov, Pərvin Sadıqova və Vlad müəllim kimi yüksək səviyyəli mütəxəssislərdən dərs almışam. Bu proqram çərçivəsində "Veb proqramların təhlükəsizliyi", "İnfrastruktur təhlükəsizliyi", "Virusların analizi və əks mühəndisliyi" kimi mövzuların əsaslarını mənimsəmişəm və bu, məndə kibertəhlükəsizlik sahəsinə daha da böyük maraq oyadıb. "WorldSkills Asia" müsabiqəsinin seçim turunun keçirilməsini gördükdə öz biliklərimi yoxlamağa qərar verdim və nəticədə finalda iştirak etmək hüququ qazandım.

*- Müsabiqə ilə bağlı təəssüratlarınızı bizimlə bölüşəsiniz.*

- "WorldSkills Asia - 2021" müsabiqəsinin final turu üç gün ərzində davam etdi və bu yarışma müddətində iştirakçılar hal-hazırda real mühitdə istifadə olunan kibertəhlükəsizlik sistemlərini quraşdırıb düzgün şəkildə tətbiq etməli idilər. Ümumi yarışma bütün yarışmaçılar tərəfindən həll edilməsi tələb olunan dörd moduldan ibarət idi. Tam əminliklə deyə bilərəm ki, kibertəhlükəsizlik sahəsi daim inkişafda olduğuna görə bu üç gün ərzində əldə etdiyim bilik və bacarıqlardan çox faydalandım.

*- Bu cür beynəlxalq müsabiqələrə qatılmaq istəyən gənclərə sizin kimi uğur qazanmaları üçün nələri tövsiyə edərdiniz?*

- Öz həyatlarını hər hansı bir sahəyə bağlamaq istəyən gənclərə demək istəyərdim ki, əgər onlar seçdikləri sahənin əsl mütəxəssisi olmaq arzusundadırlarsa, mütləq iki əsas qaydaya riayət etməlidirlər: dayanmadan öz elmi və təcrübi bilik və bacarıqlarını inkişaf etdirməli, seçdikləri elmi tam şəkildə dərk etməlidirlər. Bu halda onlar qarşılarına çıxan çətinlikləri dəf etmək imkanını daha rahatlıqla əldə edəcəklər.

*- Gələcək planlarınız və hədəfləriniz...*

- Hazırda mən Kapital Bankda kibertəhlükəsizlik mütəxəssisi olaraq çalışıram və gələcəkdə bu sahədə professional mühəndis kimi yetişmək istəyirəm. Bu məqsədimə çatmaq üçün bakalavr təhsilimi başa vurduqdan sonra magistr dərəcəsini və beynəlxalq təcrübəni əldə etmək məqsədilə xaricdə təhsil almaq istəyirəm.

*- Bizə vaxt ayırdığınız üçün təşəkkür edirəm. Qoy uğur həmişə Azərbaycan gəncləri ilə olsun!*

**Lamiyə ƏLİMƏRDANOVA**

# Peşəni seç, uğur qazan



## Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinə mediatur



Avqustun 13-də Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinə mediatur təşkil olunub. Mediaturda millət vəkilləri, tanınmış ictimaiyyət və media nümayəndələri iştirak ediblər.

Mediatur çərçivəsində iştirakçılara növbəti tədris ili üçün peşə təhsili müəssisələrinə qəbul prosesində tətbiq edilən yeniliklər və ümumi qaydalar barədə məlumat verilib. Bildirilib ki, 2021-2022-ci tədris ili üzrə tələbə qəbulu 66 peşə təhsili müəssisəsində 120 ixtisas olmaqla 21260 yer üzrə aparılır və ötən illə müqayisədə qəbul planı 9,6 faiz artırılıb. Həmçinin cari ildən etibarən ilk dəfə olaraq 5 regionda yerləşən 7 peşə təhsili müəssisəsində yüksək-texniki peşə təhsil səviyyəsinin tədrisinin aparılacağı vurğulanıb. Qeyd olunub ki, 15 ixtisas üzrə aparılacaq qəbul prosesində dövlət hesablı 840 yer ayrılıb.

Daha sonra Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin müasir standartlara cavab verən emalatxanaları, maddi-texniki bazası və tədris prosesinin təşkili ilə tanışlıq olub. Mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olan mediatur iştirakçılarının nəzərinə çatdırılıb ki, beynəlxalq təhsil standartlarına əsaslanan, qlobal sənaye ehtiyaclarına hazır rəqabət qabiliyyətli kadrlar hazırlığını həyata keçirən mərkəzdə ötən dövr ərzində tələbələrə 9 istiqamət üzrə texniki peşə, 2 istiqamət üzrə isə yüksək-texniki peşə təhsili tədris olunub. 2021-2022-ci tədris ilindən etibarən isə tələbələr həm texniki, həm də yüksək-texniki peşə təhsil səviyyəsi üzrə hər birində 11 istiqamət olmaqla müxtəlif ixtisaslarda tədris ala biləcəklər.

Mediatur çərçivəsində peşə təhsili müəssisələrini bitirmiş və müxtəlif istiqamətlər üzrə uğurlu karyera quran məzunlarla da görüş baş tutub. Görüş zamanı qonaqların təcrübəsi dinlənilib və peşə təhsilində hazırkı vəziyyət və gələcəkdə görüləcək işlərlə bağlı fikir mübadiləsi aparılıb.

Sonda mediatur iştirakçılarını maraqlandıran çoxsaylı suallar cavablandırılıb.

Qeyd edək ki, avqustun 10-dan peşə təhsili müəssisələrinə 2021-2022-ci tədris ili üzrə tələbə qəbuluna start verilib. Peşə təhsili almaq istəyən şəxslər 10-20 avqust tarixlərində *"portal.edu.az"* platforması vasitəsilə qeydiyyatdan keçməlidirlər. Qəbul prosesi ümumi və ya tam orta təhsil bazasını bitirən şəxslər üçün açıqdır.

# Azərbaycan dilinin tədrisində nəyi dəyişməli?

**Azərbaycan təhsili müasir inkişaf mərhələsini yaşayır. Orta məktəblərdə ana dilimizlə yanaşı, xarici dillər də tədris olunur. Bu gün ölkəmizdə türk, rus, ingilis, fransız və s. kimi dillərdə və həmin ölkələrin proqramları ilə fəaliyyət göstərən məktəblər və ya bölmələr var. Bunlardan təlim dili rus, ingilis və türk dili olan məktəblər sayca çoxluq təşkil edir. Tədris dili ingilis, rus, türk, fransız olan özəl məktəblərdə təhsilalanların əksəriyyəti azərbaycanlı olduğu üçün həmin şagirdlərin ana dili Azərbaycan dilidir. Eyni zamanda, dövlət ümumtəhsil məktəblərinin digər dillərdə tədris aparılan bölmələrində təhsil alan şagirdlərin mütləq əksəriyyətinin ana dili Azərbaycan dilidir.**

Azərbaycan Respublikası Təhsil İnstitutunun (ARTİ) mütəxəssisləri isə hesab edir ki, buna görə də tədris dili Azərbaycan dili olmayan məktəblərdə dövlət dilinin keyfiyyətli tədrisini təmin etmək üçün islahatların aparılmasına ciddi zərurət var. Bununla bağlı təkliflərə ARTİ-nin Elmi Şurasında baxılaraq Təhsil Nazirliyinə təqdim edilib.

AZƏRTAC xəbər verir ki, bu fikirlər ARTİ-nin direktoru Rüfət Əzizovun "Azərbaycan dilinin tədrisində nəyi dəyişməli?" adlı məqaləsində yer alıb. Məqalədə bildirilir ki, dil millətin varlığının başlıca göstəricisidir və ana dili hər bir insanın milli kimliyinin, mənəvi, şəxsi, sosial, mədəni və bəşəri dəyərlərinin formalaşmasında mühüm rol oynayır. Ana dilini yaxşı bilən şəxs fikir və düşüncələrini səlis və aydın şəkildə ifadə edə bilir, insanlarla ünsiyyət zamanı çətinlik çəkmir.

Ana dilini səlis bilmək həm də müxtəlif əcnəbi dilləri öyrənmək prosesində böyük əhəmiyyətə malikdir. Əgər şagirddə ana dili bacarıqları düzgün şəkildə formalaşarsa, şagird həmin bacarıqlardan digər dillərin öyrənilməsi üçün çox rahatlıqla istifadə edə bilər. Ana dilinin tədrisi zamanı əldə olunan hər hansı bir bacarıq, yeni xarici dil öyrənərkən avtomatik transfer olunur, yəni xarici dildə yenidən həmin bacarıqları formalaşdırmağa ehtiyac yaranmır. Ana dilini mükəmməl bilmək həm də tənqidi təfəkkürün inkişafına müsbət təsir edir, analitik düşünmə, oxuyub-anlama və nitq bacarıqlarının inkişafında mühüm rol oynayır.

Erkən yaşlarda ana dilini qurban verərək uşağa əcnəbi dil öyrətmək, yuxarıda qeyd olunan müsbət öyrənmə bacarıqlarından onu məhrum edə və gələcək nailiyyətlərinə mənfi təsir göstərə bilər. Unutmaq olmaz ki, ana dili Azərbaycan dili olan uşağa xarici dil öyrətmək xatirinə evdə xarici dildə danışmağa çalışmaq, həmin uşağı həm ana dilindən məhrum edir, həm də psixososial yöndən mənfi təsir göstərir, eyni zamanda, formalaşan nitq bacarıqlarından səmərəli istifadəni məhdudlaşdırır.

### "Dövlət dilinin tədrisinə ayrılan dərs saatı ən azı 2 dəfə artırılsın"

ARTİ təklif edir ki, təlim dili Azərbaycan dili olmayan ümumtəhsil məktəblərində dövlət dilinin tədrisinə ayrılan dərs saatı ən azı 2 dəfə artırılsın. Ümumi təhsilin yeni dövlət standartlarına əsasən, tədris digər dillərdə aparılan bölmələrdə ikinci xarici dilin tədrisi nəzərdə tutulmur.

Belə olan halda əvvəllər ikinci xarici dilin tədrisinə ayrılan 1 saatı dövlət dilinin tədrisinə əlavə edərək, ümumi orta təhsil səviyyəsində dövlət dilinin tədrisini həftədə 3 saata çatdırmaq olar. Həmçinin tədris digər dillərdə aparılan təhsil müəssisələrində dərsdənkənar məşğələlərə ayrılan saatların bir qisminin də Azərbaycan dilinin tədrisi üçün istifadə olunması məqsədəuyğun olar.

Bundan əlavə, "Azərbaycan tarixi", "Çağırışaqədərki hazırlıq" fənlərinin, "Zəfər tarixi" kursunun, "Coğrafiya" və "Ədəbiyyat" dərslərinin Azərbaycan ədəbiyyatı və coğrafiyasına həsr olunan hissələrinin də Azərbaycan dilində keçirilməsi təklifdə əksini tapıb. Eyni zamanda, Azərbaycan bölməsində istifadə edilən Azərbaycan dili dərsliyi və tədris digər dillərdə aparılan təhsil müəssisələrinin Azərbaycan dili (dövlət dili) dərsliyinin məzmunu və məqsədi arasındakı fərqin minimuma endirilməsi məqsədəmüvafiq hesab olunur.

### "Dərs saatının azlığı şagird marağını azaldırmı?"

Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsinin I bəndində qeyd edilir ki, "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".




Düşünürük ki, ana dili Azərbaycan dili olan şagird digər dillərdə tədris aparılan bölmədə oxuyaraq Azərbaycan dilini mükəmməl öyrənə bilmir və ya ümumiyyətlə, dövlət dilində fikrini ifadə etmək bacarığını itirirsə, bu amil Konstitusiyada dövlət dilinin tətbiqinə qoyulan həmin tələbin gələcəkdə pozulmasına gətirib çıxaracaq. Azərbaycan dilinin məktəb yaşlarından itirilməsi, şagirdlərin gələcəkdə cəmiyyətə sosial inteqrasiyasında problemlər yaradacaq, eləcə də yuxarıda qeyd olunan öyrənmə bacarıqlarının zəifləməsinə səbəb olaraq sonrakı akademik nailiyyətlərinə mənfi təsir edəcək.

ARTİ qeyd olunan problemləri nəzərə alaraq təklif edir ki, təlim müxtəlif dillərdə olan ümumtəhsil məktəblərində Azərbaycan dilinin tədrisi saatları ayrıca və ya inteqrasiya olunmuş şəkildə artırılsın. Sovet dövründən bu yana rəsmi tədris planında digər dillərdə tədris aparılan təhsil müəssisələrində Azərbaycan dilinə cəmi 2 saat ayrılır, yəni həftədə iki 45 dəqiqə. Dərs saatının az olması şagirdlərin dövlət dilinin tədrisinə marağını azaldır, beləliklə, bu fənnə qeyri-ciddi münasibət yaranmış olur. Digər tərəfdən, həftədə 2 saat dil tədrisi zəruri bilik və bacarıqların əldə edilməsinə mane olur. Bu vəziyyətin aradan qaldırılması üçün dövlət dilinin tədrisinə ayrılan dərs saatlarının azı 2 dəfə artırılması məqsədəuyğun olardı.

### "Biz "ana dili" və "tədris dili" anlayışlarının fərqini düzgün başa düşməliyik..."

Pedaqoji heyətə məlumdur ki, təlim dili təhsilin məzmununun özəyidir. Təlim rus (və ya digər) dilində aparılan orta məktəblərdə şagirdlərin təxminən 95 faizi azərbaycanlılar olduğu üçün burada Azərbaycan dili, Azərbaycan tarixi, coğrafiya və ədəbiyyatın öyrədilməsi məsələsinə ciddi önəm verilməli, "ana dili" və "tədris dili" anlayışlarının fərqi düzgün başa düşülməli və bu fərqə düzgün yanaşma sərgilənməlidir. Orta təhsil pilləsində ana - Azərbaycan dilinin tədrisi məsələsi diqqət mərkəzində saxlanılmalıdır.

Ümumi təhsilin yeni dövlət standartlarına əsasən dərsdənkənar məşğələlər ümumi təlim saatının 20 faizə qədərini təşkil edə bilər. Bu çox müsbət haldır və tədris planının daha çevik olmasına şərait yaradır. Təlim dili rus (və ya digər) bölmələrində dərsdənkənar saatların bir qismi Azərbaycan dilinin tədrisi üçün istifadə oluna bilər.

İstər Azərbaycan bölməsində, istərsə də digər dillərdə tədris aparılan təhsil bölmələrində Azərbaycan dilinin kurikulumu dilin tədrisində dil qaydalarının əzbərlənməsi deyil, şagirdin nitq və idraki bacarıqlarının inkişafı istiqamətində təkmilləşdirilməlidir. Şagirdlərin dilin məntiqini və funksiyasını özlərinin dərk etməsi, öyrəndiklərini şifahi və yazılı nitqlərində istifadə edə bilməsi nəzərdə tutulmalıdır.

Bu istiqamətdə ARTİ tərəfindən hazırlanmış ehtiyat dərsliklər yaxşı nümunədir və tədricən ibtidai siniflərdə tətbiq olunur. İbtidai siniflər üzrə hazırlanan I-IV sinif Azərbaycan dili dərsliklərində öyrədilən sözlərdən ibarət orfoqrafiya və izahlı lüğətin hazırlanması şagird nailiyyətlərinin yüksəldilməsinə öz töhfəsini verə bilər. Müəyyən tədris mərhələsində şagirdlərin malik olduqları söz ehtiyatını müəyyənləşdirməyə və uyğun söz bazası əsasında qiymətləndirmə materiallarının hazırlanmasına da ehtiyac var. Şagirdlərin oxuyub-anlama bacarığının inkişaf etdirilməsi üçün onların yaş səviyyəsinə uyğun uşaq ədəbiyyatı vəsaitlərinin kəmiyyətinin artırılması müsbət nəticə verə bilər.

Yuxarıda qeyd edilən təkliflər nəzərə alınarsa və dövlət dilinin tədrisinə ayrılan dərs saatlarının artırılması təmin edilərsə, Azərbaycan bölməsində istifadə edilən Azərbaycan dili dərsliyi və rus (və digər) bölməsinin Azərbaycan dili (dövlət dili) dərsliyinin məzmunu və məqsədi arasındakı fərq minimuma endirilə bilər. Bu hal, bəlkə də, gələcəkdə hər iki bölmə üzrə dərsliklərin eyni olmasına da imkan yarada bilər.

### "Dövlət dili kimi Azərbaycan dilini tədris edən pedaqoji kadrların hazırlığı ehtiyacını necə qarşılamalı?"

Yeni Azərbaycan dili dərsliklərinin tətbiq olunduğu pilot siniflərdə aparılan monitorinqlərin nəticəsinə görə Azərbaycan dilini tədris edən müəllimlər fənnin məqsədinə (nitq bacarıqlarının inkişaf etdirilməsi) uyğun tədris aparmaqda çətinlik çəkirlər. Belə ki, müəllimlər daha vacib nitq bacarıqlarının (dinləmə, danışma, oxuyub-anlama, yazı) inkişafına deyil, əsasən Azərbaycan dilinin qrammatik qayda-qanunlarının öyrədilməsinə diqqət edirlər. Müxtəlif təlimlərin və kursların təşkil edilməsi ilə yanaşı, bəhs olunan sahədə pedaqoji kadr yetişdirən ali təhsil müəssisələri ilə sıx qarşılıqlı əlaqənin təmin olunması zəruridir. Dövlət dili kimi Azərbaycan dilini tədris edən pedaqoji kadrların çatışmazlığı da ciddi narahatlıq doğuran məqamlardandır. Kadr hazırlığı ilə bərabər, hazırkı kadrların peşəkar inkişafı yönündə zəruri addımların atılmasına ehtiyac var.

Təfəkkür insana dildən keçir və şəxsiyyətinin formalaşmasında rolu böyükdür. İnsan necə düşünürsə, elə danışır. Bu baxımdan, Azərbaycan milli-mənəvi dəyərlərinin şagirdlər tərəfindən əxz olunması üçün adıçəkilən dərsləri öz dillərində öyrənmələri daha məqsədəuyğundur. Sözsüz ki, dünyaya çıxış üçün şagirdlərin rus, ingilis, fransız və dünyanın digər aparıcı dillərini öyrənməyi faydalıdır, amma ilk növbədə ana dilini mükəmməl öyrənməliyik...

O da reallıqdır ki, qloballaşan dünyada ana dilini qoruyub saxlamaq olduqca çətindir və Azərbaycan dilinin tədrisinin gücləndirilməsi ilə bağlı yuxarıda əksini tapan təkliflərin reallaşması da ana dilimizin qorunmasında əhəmiyyətli rol oynaya bilər.



**İyulun 5-dən start verilən 2021-2022-ci tədris ili üçün ümumi təhsil müəssisələrinə müəllimlərin işə qəbulu üzrə müsabiqə son mərhələsinə çatıb. 19 fənn - Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan dili, ibtidai sinif, ingilis dili, alman dili, riyaziyyat, informatika, təsviri incəsənət, rus dili, rus dili və ədəbiyyatı, fransız dili, musiqi, tarix, kimya, fizika, texnologiya, biologiya, fiziki tərbiyə və coğrafiya üzrə vakansiya mərhələsinə buraxılan 26899 namizəddən vakant yer tutan 4793 nəfər müsahibəyə dəvət edilib. Müsahibə zamanı namizədlərin peşəkar kompetensiyaları, psixoloji hazırlığı və ümumi dünyagörüşü müsahibə proqramına uyğun olaraq müvafiq komissiya tərəfindən yoxlanılır. Prosesə 23 komissiya cəlb olunub. Müsahibələr ötən ildən fərqli olaraq onlayn deyil, ənənəvi qaydada aparılır. Avqustun 18-dən start verilən bu mərhələnin ilk günü müsahibələrin təşkil edildiyi Azərbaycan Texniki Universitetinin idman zalına mediatur təşkil edilib. Jurnalistlər komissiya qarşısına çıxacaq və ya müsahibədən keçmiş namizədlərlə görüşərək onların hiss və həyəcanını bölüşməyə çalışıblar.**

# Müəllimlərin işə qəbulu üzrə müsabiqədə son mərhələ - müsahibə gedir

## Tezliklə müddətli müqavilə ilə də işə qəbul başlayacaq

### “Bu mərhələyə yaxşı hazırlaşmışam”

Onlardan biri Fazilə İsrafilovadır. Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika müəllimliyi ixtisası üzrə məzunu həm də Sumqayıt Dövlət Universitetində magistr təhsili alıb. Bu, onun müəllimlərin işə qəbulu müsabiqəsində ilk iştirakı deyil. O, 2020-ci ildə uğurla iştirak edərək Kəlbəcər rayon 120 nömrəli tam orta məktəbə fizika müəllimi təyin edilib. Bu il yenidən müsabiqəyə qatılaraq Şəki rayonu Suçma kənd tam orta məktəbindən çıxarılan vakansiyanı tutub: “Artıq 2 ildir müsahibə mərhələsində iştirak edirəm. Bu mərhələyə yaxşı hazırlaşmışam. Ümid edirəm ki, uğur qazanacağam”.

### “Şagirdlərimlə çox gözəl əl işləri hazırlayacağıq”

Xanəstə Əliyeva isə texnologiya müəllimidir: “Müəllimlərin işə qəbulu müsabiqəsinin test imtahanları mərhələsində 53 bal topladım və müsahibə mərhələsinə dəvət olundum. Müəllimliyi də, ixtisasımı da çox sevirəm. Özüm necə maraqla işləyirəmsə, şagirdlərimə də eyni vərdiş və bacarıqları aşılayacaq, onlarla çox gözəl əl işləri hazırlayacağıq. Lentlərdən komissiyaya təqdim etmək üçün əl işimi hazırlayıb gətirmişəm. Ümid edirəm, onlar üçün də maraqlı olacaq”.

### “Bu mərhələdən də uğurla çıxacağam”

Dünya Hüseynova da texnologiya müəllimliyi üzrə müsahibəyə dəvət olunub: “Xeyli müddətdir müəllimlərin işə qəbulu müsabiqəsinə hazırlaşıram. Test imtahanı mərhələsindən 51 bal toplayaraq uğur qazandım. Müsahibə mərhələsi mənim üçün digər mərhələlərdən daha həyəcanlıdır. Ümid edirəm, bu mərhələdən də uğurla çıxacağam”.

### “Müsabiqəyə hazır olduğum üçün...”

Əhməd Əhmədsoy isə fiziki tərbiyə müəllimliyi üzrə müəllimlərin işə qəbulu müsabiqəsində uğur qazanan namizədlərdən biridir: “Nə test imtahanları mərhələsi, nə də müsahibə mənim üçün çətin oldu. Hər halda müsabiqəyə hazır olduğum üçün mənə asan gəldi”.

### “Nəticənin uğurlu olacağına inanıram”

İbrahim Muradov müsahibəyə riyaziyyat müəllimliyi üzrə qatılıb. Xaçmaz rayonundan olan namizəd komissiyanın psixoloji testindən uğurla keçdiyini düşünür: “İxtisasım, ümumi dünyagörüşü, metodika ilə bağlı suallar verildi. Cavabını bildiklərimi əsaslandırdım. Nəticənin uğurlu olacağına inanıram”.

### “Sinif otaqlarında da müsabiqədə olduğu kimi uğur qazanacağam”

Aytac Şahverdiyeva “Rəqəmsal bacarıqlar” layihəsi üzrə uğur qazanaraq müsahibə mərhələsinə dəvət alan 166 namizəddən biridir: “Test imtahanı mərhələsində 51 bal topladım. Müsahibə komissiyasının qarşısında da uğurla çıxış etdim. Komissiya üzvlərinin ixtisasım, ümumi dünyagörüşümlə bağlı suallarına cavab verdim və əminəm ki, tezliklə müəllim kimi sinif otaqlarında da müsabiqədə olduğu kimi, uğur qazanacağam”.

### Vakansiyaların bölgüsündə proporsiya

Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktoru Nurlan İsmayılbəyli jurnalistlərə bildirib ki, müsabiqə tarixində ilk dəfə olaraq “Rəqəmsal bacarıqlar” layihəsi üzrə müəllimlərin işə qəbulu da müsabiqə çərçivəsində həyata keçirilir. Bu layihədə iştirak etmək üçün uğur qazanan 166 nəfər də daxil olmaqla müsahibələrə informatika, riyaziyyat, kimya, fizika, alman dili, fransız dili, fiziki tərbiyə, təsviri incəsənət fənləri üzrə namizədlərlə start verilib. Bu gündən Azərbaycan dili, həmçinin rus dili və ədəbiyyatı fənni üzrə namizədlərin də müsahibələri keçirilir.Proses avqustun 26-dək davam edəcək və müsahibəyə dəvət hər namizədin öz şəxsi kabinetinə göndəriləcək.



Vakant yerlərin şəhər və kəndlər üzrə bölgüsündə proporsiyasının bərabər olduğunu vurğulayan Mərkəz direktorunun sözlərinə görə, həmin yerlərə iddialı namizədlərin arasında qadınlar sayca üstünlük təşkil edir. Azərbaycan dili bölməsi üzrə namizədlərin fəallığı da aşkar hiss olunur.

### Müsahibələrə gəlməyənlərə...

Müsahibə mərhələsində uğur qazanmış namizədlər ümumi təhsil müəssisələrində müddətsiz əmək müqaviləsi ilə çalışmaq imkanı qazanacaqlar. Avqustun 26-dək davam edəcək müsahibə mərhələsinə gəlməyən namizədləri isə qazanc deyil, itki gözləyir. N.İsmayılbəylinin sözlərinə görə, bu addımları onların yerləşdirildikləri vakant yerdən imtinası kimi dəyərləndirilir: “Odur ki, həmin namizədlərin müddətli müqavilə ilə işlə təmin olunması da imkan xaricində olacaq”.

Müddətli müqavilə ilə işə qəbul prosesinə isə yaxın günlərdə start veriləcək. Bunun üçün hazırlıq işlərinə başlanılıb. Bakı şəhəri üzrə 300-ə yaxın, peşə təhsili müəssisələrində ümumi təhsil fənləri üzrə 100-ə yaxın vakant yerin sistemə daxil edilməsi gözlənilir.

Proses başlayanda vaxtında xəbər tutmaları üçün namizədlər nə etməlidir?

N.İsmayılbəyli müəllimlərin işə qəbulu üzrə müsabiqədə keçid balı toplayan, lakin vakant yer tutmayan namizədlərə Təhsil Nazirliyinin sosial media hesablarını izləmələrini tövsiyə edib.

Xatırladaq ki, bu il müəllimlərin işə qəbulu üzrə müsabiqədə iştirak üçün ümumilikdə 62242 namizəd müraciət edib. Onlardan 59153 nəfəri müsabiqənin test imtahanı mərhələsində iştirak etmək hüququ əldə edib. Ümumilikdə 21 iş gününü əhatə edən və ölkə üzrə 12 imtahan mərkəzində həyata keçirilən imtahanlarda 46930 namizəd iştirak edib.

**Ruhiyyə DAŞSALAHLI**



# Naxçıvan Dövlət Universitetinin beynəlxalq əlaqələri

## Gələcəyə daha böyük uğurlarla

Azərbaycan Respublikasında uğurla davam etdirilən islahatlar ölkənin hərtərəfli inkişafını təmin edəcək bütün sahələrin dayanıqlılığını və müqavimətliliyini daha da artırmaqdadır. Bu, hər şeydən əvvəl özünün həm də sosial mahiyyəti ilə daha çox aktuallıq qazanmaqla, eyni zamanda təhsil sahəsindəki uzunmüddətli perspektivlərin yaranmasına səbəb olmaqdadır. Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan milli təhsil strategiyasının inkişafı 2004-cü ildən etibarən məqsədyönlü regional iqtisadi siyasətin güclü dayaqlarının yaranmasında etibarlı bazaya çevrildi. Uğurla icra olunan regional iqtisadi inkişaf üzrə Dövlət Proqramları artıq dördüncü mərhələsində olmaqla, bütün sahələr kimi təhsil sahəsində də regional və milli mahiyyəti artmaqda davam edən nailiyyətlərin əldə olunmasını təmin etməkdədir. Təbii ki, bu sahədə gənc nəslin elmi potensialının artması, ali təhsil alması və ixtisaslaşması kimi məsələlər dövlətin sosial siyasətinin çox mühüm tərkib hissələrinə çevrildi. Bütün bunlar milli təhsilin inkişafı sahəsində etibarlılığı ilə seçilməklə təhsil şəbəkəsinin əhatəsinin genişlənməsini də təmin etməkdədir. Əldə olunan nəticələr isə imkan verir ki, mövcud sosial-iqtisadi inkişaf səviyyəsinə, davam etdirilən islahatların nəticələrinə, əmək bazarının tələblərinə, bu sahədəki münasibətlərin davamlılığına uyğun olaraq çoxistiqamətli ixtisaslaşma üzrə təhsil imkanları yaradılsın və daha mütərəqqi tədris proseslərinin dayaqları möhkəmləndirilmiş olsun. Çox sevindirici haldır ki, qeyd olunan amillər öz ifadəsini Naxçıvan Dövlət Universitetinin (NDU) timsalında yeni-yeni uğurların əldə olunması ilə tapmaqdadır.

Hərtərəfli dövlət qayğısı ilə əhatə olunan universitetdə geridə qalan tədris ilində 6008 tələbə gələcəyin ixtisaslı kadrları olaraq təhsil almışdır. Bunun 5648-i əyani və qiyabi şöbələrində bakalavr üzrə, 360-ı isə magistratura üzrə təhsil almış və ya almaqdadır. Bununla yanaşı, ali təhsil ocağında elmi araşdırmalarla 190 tədqiqatçı məşğul olmaqdadır ki, bunun da 138-i doktorantura üzrə, 52-si isə rezidentura üzrə təhsil alır. Təbii ki, bəhs olunan göstəricilərlə universitet yeni tədris ilinə daha mütərəqqi layihələrin reallaşdırılması ilə hazırlaşmaqdadır.

Naxçıvan Dövlət Universiteti son illərdə modern təhsil imkanlarını, elmi əsaslara söykənən daha məhsuldar və yaradıcı ideyaları, startap layihələrini, yeni dünya çağırışları ilə səsləşən, həmçinin, daha çox innovativ inkişafı və texnoloji üstünlükləri hədəfləyən ali məktəb olaraq, islahatları qətiyyətlə davam etdirməkdədir. Qeyd edək ki, 14 dekabr 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan sərəncamla Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması nəzərdə tutulmuşdur. Artıq 2 hektar ərazini əhatə etməklə, 16 iyun 2021-ci il tarixində təməlqoyma mərasimi keçirilən Texnologiyalar Parkının yaradılmasında əsas məqsəd elmlə istehsalat arasında qarşılıqlı əlaqənin qurulmasından, istehsalatın yeni elmi ideyalar əsasında inkişafından, elmi tədqiqatlara olan xərclərin səmərəliliyinin yüksəldilməsindən ibarətdir. Eyni zamanda, müxtəlif elm sahələri üzrə təcrübə-konstruktor, elmi-tədqiqat və startap layihələrinin mühüm elmi nəticələrinin sənaye və xidmət sahələrində tətbiqini həyata keçirən sosial, mədəni, mühəndis-kommunikasiya təminatı olan obyektlər kompleksindən ibarət mexanizmin yaradılması ilə Texnologiya Parkında universitetin daha mühüm uğurlarının reallaşması mümkün olacaq.

Təbii ki, bütün bunlar Naxçıvan Dövlət Universitetinin bütün ixtisaslar üzrə, həm də bütün fakültələrini əhatə etməklə, bir-birini əvəz edən tədris illərinin planlarında nəzərdə tutulmaqla reallaşacaqdır. Bunlarla yanaşı, təhsilin və tədrisin idarə olunması sahəsində keyfiyyət göstəricilərinin əldə olunması hələ 2020-ci ilin may ayında yeni fakültələrin, xüsusilə də, ingilis dilində iqtisadiyyat ixtisasının yaradılmasına zəmin yaratmışdır.

NDU qarşıdakı dövrlər üzrə yeni hədəflərini müəyyən etmişdir. Bunlara:

- *təhsilin daha səmərəli keyfiyyət mərhələlərinin başladılması;*
- *tədris proseslərinin səmərəli təsisatlarının yaradılması;*
- *reallaşan islahatlara uyğun olaraq beynəlxalq əməkdaşlıqların qurulması;*
- *qarşılıqlı əməkdaşlığa əsaslanmaqla, ikili diplom layihələrinin həyata keçirilməsi;*
- *tələbə və müəllim mobilliyinin təşəkkülündə, həm də elmi araşdırma nəticələrinin ortaq yayınlanmasında mühüm nailiyyətlərin əldə olunması ilə ölkənin milli təhsil strategiyasının inkişafına hərəkətverici təsiri ilə seçiləcək nəticələrin qazanılmasına imkanlar açacaqdır.*

Qeyd olunan məsələlər NDU-nun qarşıdakı dövrlər üzrə prioritetlərinə aid olunmaqla hər zaman aktual olmuşdur. Bu məqsədlə, universitetin rektoru Elbrus İsayevin başçılıq etdiyi nümayəndə heyətinin 8-16 iyul 2021-ci il tarixlərində qardaş Türkiyə Cümhuriyyətinə səfəri zamanı Türkiyə Ali Təhsil Şurasında və Çankırı Karatekin, Ankara, Orta Doğu Teknik, Qazi, Hacı Bayram Veli, İstanbul Texnik, Yıldız Texnik universitetlərində görüşləri baş tutmuşdur. Qardaş ölkə ilə ümumi mənada məhz etibarlı tədrisin və elmi-tədqiqatların intensivliyi istiqamətində razılaşmalar əldə olunmuşdur.

Qardaş ölkənin nüfuzlu ali məktəblərinə səfər zamanı Türkiyə Ali Təhsil Şurasında (Yüksek Öğretim Kurulu-YÖK) keçirilən görüşlərin mühüm əhəmiyyətini qeyd etmək lazımdır. Burada Naxçıvan Dövlət Universitetinin 2013-cü ildən başlayaraq Mövlanə Mübadilə proqramına qoşulması və Türkiyə Respublikası ilə müəllim-tələbə mübadiləsinin səmərəli reallaşdırmasından bəhs olunmuşdur. Çox sevindirici hal olaraq qeyd olunmuşdur ki, hazırda xarici tələbələrin sayında Türkiyədən olan tələbələr üstünlük təşkil edir. Türkiyə universitetləri ilə texnopark sahəsində əməkdaşlığın perspektivlərinə önəm verilərək bu istiqamətdə təcrübə mübadiləsinin əhəmiyyətinə toxunulub. Təbii ki, bütün bunlar həm də innovativ və texnoloji inkişaf sahəsində Naxçıvan Dövlət Universitetinin üstünlüklərini bir daha ortaya qoymuş oldu.

Çoxistiqamətli razılaşmalar Çankırı Karatekin Universitetində keçirilən görüşdə qarşılıqlı perspektivə söykənən nəticələrlə yadda qalmışdır. Əlamətdar haldır ki, hazırda NDU ilə Türkiyənin öncül universitetləri arasında tələbə və müəllim mobilliyi sahəsində əməkdaşlıq müqavilələri uğurla icra olunur. Məhz Çankırı Karatekin universitetində bundan sonrakı mərhələlərdə daha mühüm layihələrin həyata keçirilməsi mümkün olacaq. Xüsusilə, ikili diplom layihələrinin bu sahədə rolu böyük olması ilə seçiləcək. Bu məqsədlə, hər iki ali təhsil ocağı arasında imzalanan protokol Türkiyə Ali Təhsil Şurası tərəfindən təsdiq olunduqdan sonra növbəti akademik ildən başlayaraq 5 il müddətində etibarlı olacaqdır.

Təbii ki, ikili diplom layihəsi çərçivəsində qarşıdakı dövrlər üçün:

- *göndəriləcək tələbələrin sayının və ortaq proqram çərçivəsində təqaüd alacaq tələbə kontingentinin müəyyənləşdirilməsi;*
- *qeyd olunan amillər üzrə şərtlərin aydınlaşdırılması;*
- *qiymətləndirmə sisteminin uyğunlaşdırılması artıq təmin olunmuşdur. Təbii ki, birgə layihənin iştirakçısı olacaq tələbələrin həmin şərtlərə əməl etməsi nəticələrə daha da səmərəlilik gətirəcək.*

NDU dünyanın 130-dan çox ölkəsinin ali məktəbləri ilə beynəlxalq əməkdaşlığa malikdir. Eyni zamanda Türkiyə Cümhuriyyətinin 80-dən çox universiteti ilə qarşılıqlı münasibətləri inkişaf etdirməkdədir. Ankara Universiteti ilə yaranan əməkdaşlıqlar da önəmliliyi ilə seçilir. Belə ki, qaşılıqlı əməkdaşlıqda:

- *akademik və elmi mövzulardakı fəaliyyətlərində bir-birinin imkan və təcrübələrindən faydalanmasından;*
- *elmi məqsədlər daxilində professor-müəllim mobilliyindən;*
- *dərs, müşavirə, tədqiqat və bu sahələr üzrə oxşar fəaliyyətlərindən;*
- *tədris və araşdırma məqsədilə hər növ kitabdan, elmi nəşrlərdən və bənzər materialların qarşılıqlı mübadiləsindən;*
- *birgə tədqiqat layihələrinin reallaşmasından və elmi yığıncaqların keçirilməsindən ibarət olan ortaq fəaliyyət öz yerini alacaqdır.*

Naxçıvan Dövlət Universitetinin qarşıdakı dövrlər üzrə hədəfləri daha dəqiq və qətiyyətlə reallaşmaqdadır. Məhz Türkiyənin qabaqcıl universitetlərindən olan Orta Doğu Teknik Universiteti (ODTU) arasında əməkdaşlıq görüşlərinin keçirilməsi bu sahədəki prosesləri daha da sürətləndirəcəkdir. Həmin görüşdə də aktual məsələ olaraq, ikili diplom layihələrinin icrası ilə bağlı razılıq əldə olunub. Bununla yanaşı, görüş zamanı istifadəyə verildikdən sonra NDU-nun Texnoparkında rezident olaraq yerli və xarici şirkətlərin ofislərinin yerləşməsi sahəsində razılığa gəlinmiş, müvafiq sahədə qabaqcıl dünya təcrübəsinin öyrənildiyi və bu baxımdan ODTU Texnoparkının imkanlarından istifadə üçün əminlik ifadə olunmuşdur.

Naxçıvan Dövlət Universitetinin beynəlxalq əməkdaşlıqlar üzrə tədbirləri qətiyyətlidir, uğurludur. Bu mənada, Qazi Universitetində keçirilən görüş və orada da çoxşaxəli istiqamətlər üzrə əməkdaşlıqlar aktuallığı ilə seçilir. Universitetlər bundan sonrakı mərhələdə qarşılıqlı işbirliklərində müxtəlif profilli ixtisaslar üzrə doktorant və dissertant mobilliyindən, fransız və ingilis dili ixtisasları üzrə təcrübə mübadiləsinin mümkünlüyündən ibarət olan ortaq fəaliyyət üzrə razılıq əldə ediblər. Eyni zamanda, universitetlər arasında daha da inkişaf edəcək münasibətlər "ortaq tədris və ixtisaslaşma", "birgə araşdırma", "ortaq ideyalar və layihələr", "təhsildə və elmdə işbirliyi", "birgə nəticələr" və digər anlayışların geniş əhatədə təşəkkülünə zəmin yaratmış olacaq.

Qarşılıqlı əməkdaşlıq haqqında baş tutan razılaşmalar Naxçıvan Dövlət Universitetinin çoxistiqamətli hədəflərini ifadə etməklə, Türkiyənin Hacı Bayram Veli Universitetində də gerçəkləşib. Tədris sahəsi, elmi dövriyyə və yaradıcılıq imkanlarının genişləndirilməsi kimi istiqamətlərdə əldə olunan razılaşmalar qarşıdakı dövrlər üzrə hər iki ali məktəb üçün olduqca səmərəli olacaq.

Ali məktəblər arasında perspektivli nəticələrə dayanan elm və tədris proseslərinin təşkilindən ibarət olan, "iki elmi rəhbərli" ixtisaslara qəbul planı aparılmasını nəzərdə tutan və həmçinin milli iqtisadi prioritetlər üzrə aktual olan sahələrə kadr hazırlığını hədəfləyən nəticələr əldə olunacaq.

Qeyd etmək olar ki, bütün bunlar ölkəmizin uzunmüddətli iqtisadi hədəfləri müstəvisində də olduqca faydalı olacaq. Belə ki, yeni keyfiyyət mərhələsində davam etdirilən iqtisadi islahatlar ənənəvi sahələrlə yanaşı, prioritet olaraq seçilən sahələrin də, xüsusilə də, turizm sektorunun perspektivlərinin yaradılması aktuallığını artırmaqdadır. Məhz turizm sənayesinin elmi əsaslarının təşəkkülündə və dayanıqlılığının təmin olunmasında universitetlər arasındakı əməkdaşlığın gücləndirilməsi və inkişafı çox səmərəli olacaq. Çünki bu, yeni mərhələdə universitetimizin turizm ixtisası üzrə təhsil alan tələbələrinin axtarış və mənimsəmə imkanlarını, eyni zamanda, tədris aparan müəllimlərin təcrübə və peşəkarlığını daha da artıracaq.

Tədrisin etibarlılığı və elmi araşdırmaların daha əhatəli olmasında qabaqcıl ali təhsil ocaqlarından biri olan İstanbul Texnik Universitetinə səfərin də çox mühüm əhəmiyyəti var. Peşəkarlığın qorunması, elmi-təcrübi və daha çox tətbiqi fənlər üzrə keyfiyyət göstəricilərinin artan dinamikasının təşəkkülü ali məktəbimizin qarşıdakı dövrlər üzrə perspektivlərinə aid olacaqdır. Eyni zamanda, əldə olunan razılaşmalar universitetimizin İncəsənət fakültəsində təhsil alan tələbələr üçün də səmərəliliyi ilə seçiləcəkdir. Belə ki, bu istiqamətdə mobilliyin təşkili və idarə olunması sahəsində proqramların icrası, həmçinin ikili diplom layihələrinin həyata keçirilməsi yaxın gələcək üzrə hədəflərimizi təşkil edəcəkdir.

Əlamətdar hal ondan ibarətdir ki, əməkdaşlıqlar bütün ixtisaslar üzrə tələbələrə seçim imkanlarını daha da genişləndirəcək, onların ixtisaslı kadr, gerçək mütəxəssis olaraq formalaşmasına təkan olacaqdır. Bu sahədə universitetimizin "Elektrik və elektronika mühəndisliyi" ixtisası üzrə birgə tədrisin təşkili və eyni zamanda doktorantura və magistratura təhsil pilləsi, həmçinin texniki və mühəndislik sahələri üzrə ikili diplom proqramının həyata keçirilməsini qeyd etməyimiz yerinə düşər.

Qeyd edək ki, ikili diplom layihəsi özünün ali təhsil sahəsindəki üstünlükləri ilə yanaşı, həm də iki qardaş dövlətin birgə təhsilini, birgə tələbəsini, birgə kadrını ifadə etməklə, eyni zamanda, bir tələbənin öz ixtisaslaşmasında güvəndiyi iki qardaş dövlətin gücünü bir daha göstərmiş olacaq. Bununla da, təbii ki, hər birimiz üçün qürurverici kəlam olan "Bir millət, iki dövlət" anlayışını iftixarla zirvələrdə yaşadacaqdır. Burada həmçinin bizim universitetimiz üçün əhəmiyyəli təcrübə olacaq texnopark sahəsində uğurlu fəaliyyətin müxtəlif tərəfləri müzakirə olunmuş və xüsusilə, İTU ARI Texnoparkı ilə birgə fəaliyyət üzrə razılığa gəlinmişdir.

Təhsil sahəsində innovativ inkişafı və çevik mexanizmləri, dövlətimizin hərtərəfli qayğısı və diqqəti ilə əldə etdiyi uğurlar sevindiricidir. Xüsusilə, qardaş Türkiyə Cümhuriyyətinin Yıldız Texnik Universiteti (YTU) ilə qarşılıqlı əməkdaşlıqlar üzrə əldə olunan razılaşmalar qarşıdakı uzunmüddətli dövrlər üzrə çox böyük potensial olacaq. YTU-də keçirilən görüş zamanı da mühüm ortaq razılaşmalar əldə olunmuşdur.

Beləliklə, Naxçıvan Dövlət Universiteti yeni 2021-2022-ci tədris ilinə daha böyük uğurlarla başlayacaq. Burada həm də tələbələrlə müəllimlərin qarşılıqlı tədris münasibətlərinin inkişafına və daha böyük keyfiyyət göstəricilərinə təminat olacaq. Bütün mənalarda bunlar milli təhsil strategiyasının səmərəliliyinin ifadəsi olmaqla, çox aktualdır.

**Cavadxan QASIMOV,**
*Naxçıvan Dövlət Universitetinin dosenti,*
*iqtisad üzrə fəlsəfə doktoru*

## BDU Belarus universitetləri ilə əməkdaşlığı genişləndirir

Azərbaycanın Belarus Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ülvi Baxşəliyev Bakı Dövlət Universitetində (BDU) olub.

BDU-nun rektoru Elçin Babayevlə səfirin görüşündə Azərbaycan-Belarus əlaqələrindən söz açılıb, hər iki ölkənin ali təhsil müəssisələri arasında əməkdaşlığın inkişafı imkanları müzakirə olunub.

Rektor ölkəmizin ən böyük ali təhsil müəssisəsi olan BDU-nun dünyanın bir sıra tanınmış universitetləri ilə sıx əməkdaşlıq etdiyi, qarşılıqlı təcrübə mübadiləsi apardığı haqqında məlumat verib, hazırda dünyanın 7 qabaqcıl ali təhsil müəssisəsi ilə ikili diplom proqramları üzrə birgə kadr hazırlığının həyata keçirildiyini qeyd edib. Bildirilib ki, Belarus universitetləri ilə də qarşılıqlı təcrübə mübadiləsi, birgə elmi tədbirlərin keçirilməsi, elmi-tədqiqat işlərinin aparılması və s. istiqamətində işlər nəzərdə tutulub.

Səfir Ülvi Baxşəliyev Azərbaycan və Belarus arasında mədəni, elmi və təhsil əlaqələrinin zəngin tarixinin olduğunu söyləyərək, gələcəkdə bu əlaqələrin inkişaf etdirilməsi üçün səfirliyin yardımçı olacağını qeyd edib.

## 160 namizəd UFAZ tələbəsi statusunu qazanacaq

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetinə (UFAZ) 2021/2022-ci tədris ili üçün bakalavr pilləsi üzrə qəbul imtahanı keçirilib.

ADNSU-dan bildirilib ki, UFAZ-a qəbul imtahanında iştirak etmək üçün Dövlət İmtahan Mərkəzinin (DİM) mərkəzləşdirilmiş qəbul imtahanında I ixtisas qrupu üzrə 500 və daha artıq bal toplayan, ümumilikdə 330 nəfər abituriyent (70 nəfər rus bölməsi üzrə və 260 nəfər Azərbaycan bölməsi üzrə) 160 qəbul yeri üçün qeydiyyatdan keçib. Onlardan 294 nəfər imtahanda iştirak edib.

İmtahanda abituriyentlər 2 saat 30 dəqiqə ərzində riyaziyyat, kimya, fizika, ingilis dili və ümumi dünyagörüşü üzrə sualları cavablandırıblar. Yekunda ən çox bal toplamış 160 namizəd UFAZ tələbəsi statusunu qazanacaq. UFAZ-da təhsil ingilis dilində olduğundan, abituriyentlər üçün daha bir tələb ingilis dili üzrə mümkün 20 baldan minimum 8 bal toplamaqdır.

İmtahan nəticələri avqustun 20-də dərc ediləcək. Apelyasiya müraciətlərinə isə avqustun 21-də baxılacaq. İmtahanda uğurlu nəticə əldə edən abituriyentlərin təsdiq olunmuş siyahısı Azərbaycan Respublikası Təhsil Nazirliyinə təqdim olunacaq. Təhsil Nazirliyi isə öz növbəsində UFAZ-a qəbul olmuş gənclərin adlarını Dövlət İmtahan Mərkəzinə təqdim edəcək və onlar digər ali məktəblərə müsabiqədə iştirak etməyəcəklər. UFAZ-a imtahan verib uğur əldə edə bilməyən tələbələr isə DİM-in təşkil etdiyi mərkəzləşdirilmiş qəbul imtahanında topladıqları ballar əsasında ADNSU-nun, eləcə də digər ali məktəblərin təqdim etdiyi müvafiq ixtisaslar arasında öz seçimlərini edə bilərlər.

Qeyd edək ki, UFAZ-a qəbul imtahanının nəticələrindən asılı olaraq tələbələrə ya dövlət (120 yer), ya da ödənişli əsaslarla (40 yer) yerlər təklif olunur. UFAZ-da 4 ixtisas üzrə - geofizika və geologiya mühəndisliyi, kimya mühəndisliyi, neft-qaz mühəndisliyi və kompüter elmləri ixtisasları üzrə tədris həyata keçirilir. UFAZ məzunları iki diplom (Strasburq Universiteti və ya Renn 1 və ADNSU) alacaqlar. UFAZ-da bütün ixtisaslar üzrə tədris 4 ildir.

# Mingəçevir Dövlət Universitetini strateji hədəflərə yaxınlaşdıran modernləşmə yolu



(Əvvəli 6 avqust tarixli sayımızda)

## 2020/2021-ci tədris ili: strateji tərəfdaşlıqlar və beynəlxalq əməkdaşlıqda yeni mərhələ

**Şahin BAYRAMOV,**
*Mingəçevir Dövlət Universitetinin rektoru*

### Qabaqcıl paytaxt universitetləri ilə strateji tərəfdaşlıq

Akademik potensialın gücləndirilməsi və ali təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədi ilə paytaxtın qabaqcıl universitetləri ilə sıx əməkdaşlığa strateji önəm verən MDU-da cari tədris ilində tərəfdaş ali təhsil müəssislərindən olan Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ilə mövcud əlaqələrin inkişafı diqqət mərkəzində saxlanılmışdır.

*Bakı Dövlət Universiteti (BDU)*

Azərbaycan ali təhsilinin flaqmanı olan BDU və MDU arasında 2019-cu ilin 30 sentyabr tarixində əməkdaşlıq protokolunun imzalanması ilə əsası qoyulan əlaqələr cari tədris ilində uğurla davam etdirilmişdir. Əməkdaşlıq çərçivəsində, 2021-ci ilin 4 mart tarixində MDU rəhbərliyi orta təhsilini Mingəçevir şəhərində başa vuran və yüksək bal toplayaraq BDU-nun “Hüquqşünaslıq” ixtisası üzrə təhsil alan yuxarı kurs tələbələri ilə görüş keçirmişdir. Əsas məqsəd BDU məzunu olacaq mingəçevirli gənclərin gələcəkdə MDU-da akademik və inzibati fəaliyyətə cəlb edilməsidir.

2021-ci ilin 19 mart tarixində BDU-da keçirilən və “Elm günü”nə həsr olunmuş “Kainatın yaranmasının müasir fiziki mənzərəsi” mövzusunda onlayn mühazirədə MDU-nun professor-müəllim və tələbə heyəti fəal iştirak etmişdir.

Bununla yanaşı, hesabat dövründə hər iki ali təhsil müəssisəsində təşkil olunmuş elmi-praktiki konfranslarda akademik heyət üzvlərinin qarşılıqlı şəkildə fəal təmsil olunması, “Erasmus+” proqramı çərçivəsində “Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşması üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar” (GEOCLIC) layihəsi üzrə tərəfdaşlığın həyata keçirilməsi ilə MDU və BDU arasında işbirliyi inkişaf etmişdir.

*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

Dünya səviyyəli universitet olmaq yolunda sürətlə irəliləyən UNEC ilə ötən tədris ilində imzalanmış əməkdaşlıq müqaviləsi çərçivəsində reallaşdırılan işbirliyi hesabat dövründə daha da möhkəmləndirilmişdir.

Əsasən MDU-nun İqtisadiyyat və idarəetmə fakültəsinin modernləşdirilməsinə hədəflənən sözügedən əməkdaşlıq çərçivəsində MDU tələbələri, magistrantları və əməkdaşları UNEC-də təşkil olunan əksər konfranslarda fəal iştirak etmişlər.

Bununla yanaşı, cari tədris ilində UNEC tərəfindən “Distant təhsildə tədrisin təşkili və metodik təminatı”, “Kompüter şəbəkələrinin əsasları” və “Şəbəkədə təhlükəsizlik tədbirləri” mövzularında keçirilən onlayn təlimlər MDU-nun akademik və inzibati heyət üzvləri, tələbə və magistrantlarının bilik və bacarıqlarının artırılmasına, məsafədən tədris prosesinin səmərəli təşkili və idarə edilməsinə hazırlıq səviyyəsinin yüksəldilməsinə töhfə vermişdir.

*Azərbaycan Texniki Universiteti (AzTU)*

Ölkəmizin nüfuzlu ali təhsil müəssisələrindən biri olan AzTU ilə MDU arasında 2019-cu ildə imzalanmış anlaşma memorandumu çərçivəsində ikitərəfli əməkdaşlığın inkişafı istiqamətində cari tədris ilində əhəmiyyətli addımlar atılmışdır.

AzTU ilə birlikdə keçirilmiş “Azərbaycanda rəqəmsal ödənişlərin tətbiqi: reallıqlar və perspektivlər”, AzTU-nun 70 illik yubileyinə həsr olunan “Cəmiyyətin innovativ infrastrukturunun formalaşmasında informasiya texnologiyaları sənayesinin artan rolu”, Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunmuş “Müasir informasiya cəmiyyətinin yeni çağırışları və imkanları” mövzularında elmi-praktik seminarlar uğurlu və məhsuldar olmuşdur.

Eyni zamanda, MDU-nun Mühəndislik fakültəsinin potensialının gücləndirilməsinə və kadr hazırlığının keyfiyyətinin yüksəldilməsinə mühüm töhfə verən sözügedən əməkdaşlıq çərçivəsində cari tədris ilindən etibarən AzTU-nun bir professoru və bir dosenti davamlı əsaslarla (0.5 ştat) MDU-da tədris prosesinə cəlb olunmuşdur.

2021-ci ilin 22-23 may tarixlərində AzTU, MDU və Türkiyənin Qazi Universitetinin rektorlarının Mingəçevirdə, 18 iyun tarixində isə AzTU, MDU və Türkiyənin Yıldız Texnik Universitetinin rektorlarının Bakıda keçirilən görüşlərində yaxın gələcəkdə üçtərəfli formatlarda əməkdaşlığın inkişaf etdirilməsinə dair ilkin razılıqlar əldə edilmişdir.

*Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU)*

MDU-da Pedaqoji fakültənin potensialının gücləndirilməsi və pedaqoji kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi məqsədilə ölkəmizin nüfuzlu ali təhsil müəssisələrindən biri olan ADPU ilə əməkdaşlığın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılmışdır.

ADPU-nun 100 illik yubileyi münasibətilə 2021-ci ilin 27 may tarixində “Xarici dillərin tədrisi: müəllim hazırlığında müasir tendensiyalar”, 4 iyun tarixində “Müəllim hazırlığında riyaziyyatın tədrisi: müasir çağırışlar və yeni yanaşmalar”, 11 iyun tarixində “Ədəbiyyat dərslərində fəal (interaktiv) təlimin tətbiqi” mövzularında MDU-da birgə nəzəri-praktiki seminarlar keçirilmişdir.

*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU)*

Sürətli modernləşmə yolunu seçən MDU-da ölkəmizin qabaqcıl və qocaman ali təhsil müəssisələrindən biri olan ADNSU ilə hərtərəfli əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi önəm verilmişdir.

2020-ci ilin 25 dekabr tarixində MDU-nun təşəbbüsü ilə ADNSU-nun 100 illik yubileyi münasibətilə onlayn formatda keçirilən birgə tədbiri əməkdaşlıq çərçivəsində atılan ilk addım kimi dəyərləndirmək olar. Tədbirdə iki universitet arasında tələbə və müəllim mübadiləsinin həyata keçirilməsi, birgə tədqiqatların aparılması, ortaq layihələrin icra edilməsi, MDU tələbələri və müəllimlərinə ADNSU-nun elektron kitabxanasına çıxış imkanının verilməsi, MDU-nun gənc əməkdaşlarının ADNSU-da doktorantura səviyyəsində təhsil alması və digər istiqamətlərdə ilkin razılıq əldə edilmişdir.

Cari tədris ilində ADNSU tərəfindən MDU-ya mühəndislik, energetika, mexanika, informasiya texnologiyaları və digər sahələri əhatə edən 117 adda və 142 nüsxədə kitabın hədiyyə edilməsi Mühəndislik fakültəsinin potensialının gücləndirilməsinə əhəmiyyətli töhfə olmuşdur.

### Beynəlxalq əməkdaşlıqda yüksələn dinamika və yeni mərhələ

Cari tədris ilinin payız semestrində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Siegen Universiteti ilə reallaşdırılan işbirliyi, Avropa Ali Təhsil Məkanı üzv ölkələrinin Nazirlər Konfransında, Kəmər və Yol Universitetləri Alyansının beynəlxalq konfransında, eləcə də Erasmus+ proqramında iştirak çərçivəsində həyata keçirilən universitetin beynəlxalq əməkdaşlığı yaz semestrində Türkiyə və Ukraynanın qabaqcıl ali təhsil müəssisələri ilə məqsədyönlü əlaqələrin qurulması nəticəsində yüksək dinamika qazanmış və yeni mərhələyə qədəm qoymuşdur.

*Yıldız Texnik Universiteti (YTU)*

Türkiyənin qocaman və davamlı müasirləşən ali təhsil müəssisələrindən biri olan YTU ilə işbirliyinə 2021-ci ilin 12 mart tarixində MDU rektorunun İstanbula səfəri çərçivəsində əməkdaşlıq protokolunun imzalanması ilə başlanılmışdır.

Hər iki universitet üçün qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığı nəzərdə tutan protokol tələbə və müəllim mübadiləsini, ortaq mühazirələrin təşkilini, birgə tədqiqatların aparılmasını, qısamüddətli akademik proqramların həyata keçirilməsini və digər məsələləri əhatə edir.

Eyni zamanda, Mühəndislik fakültəsinin modernləşdirilməsini hədəfləyən əməkdaşlıq çərçivəsində akademik və inzibati heyətin bilik və bacarıqlarının inkişaf etdirilməsi, müasir tələblərə cavab verən kampusun yaradılması və gənc əməkdaşların doktorantura səviyyəsində təhsil alması, məsafədən təhsilin yaratdığı imkanlardan fayda əldə edilməsi və digər məsələlərdə MDU-ya müvafiq dəstəyin göstərilməsinə dair ilkin razılıq əldə edilmişdir.

Bundan əlavə, 2021-ci ilin 18 iyun tarixində universitet rektorlarının AzTU-da keçirilən görüşü çərçivəsində tədrisin məzmununun yenilənməsi və müvafiq tədris laboratoriyalarının yaradılması, üçtərəfli əməkdaşlıq formatının inkişaf etdirilməsi ilə bağlı təkliflərə müsbət münasibət bildirilmiş, MDU və YTU arasında Mevlana Mübadilə Protokolu imzalanmışdır. Sənəd növbəti tədris ilində universitetlər arasında tələbə, müəllim və inzibati heyət üzvlərinin mübadiləsini nəzərdə tutur.

*Qazi Universiteti*

Zəngin ənənələrə, müasir infrastruktura və güclü kadr potensialına malik Qazi Universiteti ilə işbirliyinin başlıca hədəflərini MDU-nun Mühəndislik və Pedaqoji fakültələrinin inkişaf etdirilməsi təşkil edir.

İlk dəfə olaraq, 2021-ci ilin 15 mart tarixində Ankarada keçirilən hər iki universitetin rektorlarının görüşündə akademik heyətin tədris bacarıqlarının inkişaf etdirilməsi, inzibati heyətin idarəetmə səriştəsinin artırılması, yeni ixtisasların yaradılması və digər sahələrdə MDU-ya müvafiq dəstəyin göstəriləcəyi bəyan edilmiş, ortaq virtual elmi konfransların təşkili, fakültə idarəçiliyi ilə bağlı təlimlərin keçirilməsi və digər məsələlər razılaşdırılmışdır.

2021-ci ilin 6 aprel tarixində MDU və Qazi Universitetinin birgə təşkilatçılığı ilə Azərbaycanın dahi şairi və türk dünyasının böyük mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş elmi konfransın keçirilməsi əməkdaşlıq çərçivəsində atılan ilk addım olmuşdur. Bununla yanaşı, MDU-nun akademik və inzibati heyəti üzvləri Qazi Universitetində onlayn formatda təşkil edilən bir sıra tədbirlərdə fəal iştirak etmişlər.

2021-ci ilin 22-23 may tarixlərində Qazi Universiteti rektorunun geniş tərkibdə nümayəndə heyəti ilə Mingəçevir şəhərində səfərdə olması, universitetin bir qrup professor-müəllim, inzibati-texniki heyət üzvləri, tələbə və magistrantları ilə görüşün keçirilməsi, müxtəlif sənaye obyektlərinin, tarixi-mədəni abidələrin ziyarət edilməsi və universitetlər arasında əməkdaşlıq protokolunun imzalanması MDU-nun beynəlxalq əlaqələrinin inkişafında yeni bir səhifə kimi dəyərləndirilə bilər.

*Ankara Hacı Bayram Veli Universiteti (AHBVU)*

Türkiyənin çağdaş və yenilikçi ali təhsil müəssisələrindən biri olan AHBVU və MDU arasında əməkdaşlığın əsası 2021-ci ilin 15 mart tarixində hər iki universitetin rektorlarının Ankarada görüşü zamanı qoyulmuşdur. Hər iki universitetin uyğun proqramları üzrə tələbə və müəllim mübadiləsi, ortaq konfransların keçirilməsi, birgə tədqiqatların aparılması, fakültə idarəçiliyinin təkmilləşdirilməsi, struktur islahatlarının dəstəklənməsi, professor-müəllim və tələbə heyəti arasında əlaqələri gücləndirən müxtəlif formatlı tədbirlərin keçirilməsi və digər məsələlər barədə razılıq əldə edilmişdir.

MDU-nun İqtisadiyyat və idarəetmə fakültəsinin potensialının gücləndirilməsinə, xüsusilə turizm təhsilinin inkişafına töhfə verən ikitərəfli əməkdaşlıq məhsuldarlığı ilə fərqlənmişdir.

Cari ilin 29 aprel və 20 may tarixlərində universitetlərarası əməkdaşlıq çərçivəsində qarşılıqlı mühazirələrin keçirilməsini nəzərdə tutan birgə layihə reallaşdırılmışdır. Layihə çərçivəsində AHBVU-nun Turizm fakültəsinin təcrübəli akademik heyət üzvləri “Turizmdə yeni tendensiyalar” və “Turizm siyasəti və planlaşdırılması”, MDU-nun gənc müəllimləri “Azərbaycanda turizm və rekreasiya imkanları”, “Azərbaycanın dayanıqlı inkişafında yaşıl turizmin rolu” mövzularında mühazirələr oxumuşlar.

2021-ci ilin 3-4 may tarixlərində MDU İqtisadiyyat və idarəetmə fakültəsinin bir qrup tələbəsi və gənc əməkdaşı AHBVU İqtisadi və idari bilimlər fakültəsində bakalavriat səviyyəsində tədris olunan onlayn dərslərə qoşulmuşlar. Dərslərdə “Beynəlxalq biznes” və “Beynəlxalq ticarətə giriş” fənləri üzrə mühazirələr dinlənilmişdir.

25 may tarixində MDU və AHBVU-nun birgə təşkilatçılığı ilə “Tarixi Zəfərdən sonra və postpandemiya dövründə Azərbaycan-Türkiyə turizm əməkdaşlığında yeni imkanlar” mövzusunda keçirilmiş elmi konfrans böyük maraqla qarşılanmışdır. Onlayn formatda təşkil edilən konfransda AHBVU-nun Turizm fakültəsinin təcrübəli professorları “Türkiyə ali təhsil sistemində turizm”, “COVID-19 pandemiyası dövründə Türkiyə turizminə gələcək baxış”, MDU-nun gənc akademik heyət üzvləri “Qarabağın turizm ehtiyatları”, “Qarabağda turizm sahəsinə investisiya qoyuluşunun prioritet istiqamətləri” mövzusunda məruzələrlə çıxış etmişlər.

2021-ci ilin iyun ayı ərzində AHBVU-nun təcrübəli professorları tərəfindən MDU-nun gənc akademik heyət üzvləri və magistrantları üçün “Turizm müəssisələrində insan resurslarının idarə edilməsi”, “Turizm müəssisələrində müştəri münasibətlərinin idarə edilməsi” və “Mühasibat uçotu sahəsində e-dövlət tətbiqləri” mövzularında seminarlar keçirilmişdir.

*Konya Ticarət Odası (KTO) Karatay Universiteti*

Türkiyənin sürətlə böyüyən sənaye mərkəzində yerləşən və müasir kampusa sahib olan KTO Karatay Universiteti ilə əməkdaşlığın əsası 2021-ci ilin 16 mart tarixində hər iki universitetin rektorlarının Konyada keçirilən görüşü çərçivəsində əməkdaşlıq protokolunun imzalanması ilə qoyulmuşdur.

Qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın yaradılmasını və inkişaf etdirilməsini nəzərdə tutan protokol tədris prosesində ortaq fəaliyyətlərin həyata keçirilməsi, tələbə və magistr mübadiləsi, müəllim və inzibati heyətin mobilliliyi, akademik və elmi sahədə sertifikat proqramları, ortaq konfranslar və simpoziumların keçirilməsi, birgə tədqiqatların aparılması, elmi məqalələrin dərc edilməsi və digər məsələləri əhatə edir.

Eyni zamanda, universitet və sənaye arasında davamlı işbirliyinin yaradılması, unversitet büdcəsinin sənayeyə xidmət hesabına genişləndirilməsi, yeni nəsil kampusun yaradılması, rəqəmsallaşma və digər sahələrdə KTO Karatay Universitetinin uğurlu təcrübələrindən MDU-nun faydalana bilməsi üçün müvafiq dəstək göstəriləcəkdir.

2021-ci ilin 22 aprel tarixində MDU və KTO Karatay universitetinin inzibati heyət üzvləri arasında onlayn formatda işçi qaydada keçirilən görüşdə növbəti tədris ili üçün birgə tədbirlər planı müzakirə edilmiş və razılaşdırılmışdır.

*Özyeğin Universiteti (ÖzU)*

Türkiyənin yeni dövr ali təhsil müəssisələrindən biri hesab edilən, ən “yaşıl universitet”lər sırasında yer alan və müasir standartlara cavab verən kampusda fəaliyyət göstərən ÖzU ilə əməkdaşlıq MDU-da mövcud infrastrukturun modernləşdirilməsi və kadr potensialının gücləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

2021-ci ilin 12 mart tarixində MDU-nun nümayəndə heyətinin üzvləri ÖzU-nu ziyarət çərçivəsində yaşıl kampusda yerləşən tədris binaları, tələbə ofisləri, biznesin inkişafı və sənaye 4.0 kompetensiyaları mərkəzi, kitabxana, qapalı və açıq idman meydançaları, yeməkxana, yataqxana və digər infrastruktur obyektləri ilə tanış olmuş, gələcəkdə kampus idarəçiliyi sahəsində ÖzU təcrübəsindən faydalanmaq imkanları əldə etmişlər.

*Kiyev Milli İqtisadiyyat Universiteti (KNEU)*

Yaz semestrində Ukraynanın nüfuzlu ali təhsil müəssisələrindən biri olan KNEU ilə əməkdaşlığın əsası qoyulmuşdur. 2021-ci ilin 2 mart tarixində MDU və KNEU arasında əməkdaşlıq çərçivəsində qarşılıqlı silsilə mühazirələrin keçirilməsini nəzərdə tutan birgə layihəyə start verilmişdir.

Layihə çərçivəsində müxtəlif mövzuları əhatə edən dörd qarşılıqlı mühazirə təşkil edilmişdir. Belə ki, cari ilin mart-aprel ayları ərzində KNEU-nun akademik heyət üzvləri tərəfindən “Pandemiya dövründə onlayn və ənənəvi təhsil”, “Dövlət maliyyəsi idarəetməsində dövlət büdcəsi”, MDU-nun akademik heyət üzvləri tərəfindən “Nizaminin Qərb ədəbiyyatı və mədəniyyətinə təsiri”, “Aktiv tədris və təlim texnikaları” mövzularında mühazirələr oxunmuşdur.

*Almaniyanın Siegen Universiteti*

MDU ilə Siegen Universiteti arasında əməkdaşlıq çərçivəsində 2020-ci ilin noyabr-dekabr aylarında “Sahibkarlıq bacarıqlarının inkişaf etdirilməsi” mövzusunda birgə layihə reallaşdırılmış və bütün təlim iştirakçılarına müvafiq sertifikatlar təqdim edilmişdir. Layihə çərçivəsində ən yaxşı biznes planları təqdim edən universitetin dörd tələbə və magistrantı dünyaca nüfuzlu “Coursera” onlayn təhsil platformasında müvafiq kurslarda ödənişsiz iştirak hüququ qazanmışdır.

*Erasmus+ proqramı*

MDU Avropa İttifaqının Erasmus+ proqramı çərçivəsində həm potensialın gücləndirilməsi, həm də tələbə və müəllim mübadiləsi layihələrində fəal iştiraka xüsusi diqqət yetirir. Bu proqram çərçivəsində cari tədris ilinin yaz semestrində MDU-nun bir magistrantı İspaniyanın Vallodolid Universitetində təhsil almışdır.

Bundan başqa, MDU “Sahil ekosistemlərinin iqlim dəyişikliyinə uyğunlaşması üçün geoməkan mühəndisliyi üzrə yeni kurslar” (GEOCLIC) adlı Erasmus+ proqramında fəal iştirak edir. Layihənin açılış tədbiri cari ilin 17 mart tarixində keçirilmişdir.

*Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ)*

Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) maliyyə dəstəyi ilə GIZ tərəfindən Azərbaycanda həyata keçirilən “Cənubi Qafqazda aztəminatlı məcburi köçkünlərin və yerli əhalinin iqtisadi və sosial inkişafı” proqramı (EPİC) çərçivəsində 2020-ci ilin dekabr ayından başlanan “MDU-da Karyera Mərkəzinin yaradılması və inkişafı” layihəsi uğurla icra edilir.

Layihə çərçivəsində MDU-da yaradılacaq Karyera Mərkəzinin effektiv fəaliyyətinin təmin edilməsi məqsədilə üç aylıq “Karyera məsləhətçiliyi” təlimləri başa çatdırılmış və yeni strukturun fəaliyyəti üçün nəzərdə tutulan avadanlıqlar universitetə təqdim edilmişdir.

### Strateji tərəfdaşlığın dəstəklənməsi

Pandemiya dövrünün çətinliklərinə və məhdudiyyətlərinə baxmayaraq, MDU-da müvafiq istiqamətlər üzrə fəaliyyətin davamlılığının təmin edilməsinə Təhsil Nazirliyi, Azərbaycanın Türkiyədəki Səfirliyi, Mingəçevir Şəhər İcra Hakimiyyəti, yerli və xarici tərəfdaş universitetlər və digər qurumlar mühüm dəstək vermişdir. Fikrimizcə, qarşılıqlı faydalı əməkdaşlıqların genişləndirilməsi və inkişaf etdirilməsi modernləşmə yolunda inamla irəliləyən MDU-nun strateji hədəflərinə yaxınlaşmasına ciddi töhfələr verir.




# Bakı məktəblisi dünya ikincisi oldu

Paytaxt məktəblisi Macarıstanın paytaxtı Budapeşt şəhərində sərbəst güləş üzrə yeniyetmələr arasında keçirilən dünya çempionatında qalib olub.

Belə ki, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyindəki 76 nömrəli tam orta məktəbin IX sinif şagirdi Ruzanna Məmmədova 46 kq çəki dərəcəsində II yeri qazanıb.

Təsnifat mərhələsində qazax güləşçiyə tam üstünlüklə qalib gələrək dünya çempionatına start verən R. Məmmədova rumıniyalı rəqibini məğlub edərək adını yarımfinala yazdırıb. Türkiyə güləşçisini də məğlub edərək finala vəsiqə qazanan idmançımız həlledici görüşdə hindistanlı rəqibinə uduzaraq gümüş medala layiq görülüb.

Ruzanna Məmmədovanı, onun müəllimlərini və valideynlərini ürəkdən təbrik edirik!


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74

**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4012 **Sifariş** 1539

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Bakı şəhər** 111 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Abbasov Vahid Ağamirzə oğluna verilmiş attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2018-ci ildə Quluzadə Həsən Vüqar oğluna verilmiş A-151510 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 5 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Məmmədova Cavidan Kənan qızına verilmiş B-424645 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 70 nömrəli məktəb-liseyin IX sinfini 1996-cı ildə bitirmiş İmranova Samirə Nurməhəmməd qızına verilmiş 031708 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 11 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Əmirxanova Gülnar Ələkbər qızına verilmiş A-474801 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2020-ci ildə Cahangirli Aydan Şükrət qızına verilmiş C-074666 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 200 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Seyidbəyli Ellada Mirsamil qızına verilmiş B-172228 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universitetini** 2008-ci ildə bitirmiş Muxtarov Bəylər Balaxan oğluna 2009-cu ildə verilmiş B-136498 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 25 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Xəlilova Leyla Vüqar qızına verilmiş E-256949 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universiteti** tərəfindən 1993-cü ildə Qasımova Dilarə Polad qızına verilmiş ШВ-737684 nömrəli fərqlənmə diplomu və 1994-cü ildə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci** tərəfindən 2007-ci ildə Tağıyev Babək Vaqif oğluna verilmiş AA-050378 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Gər-gər kənd tam orta məktəbi 1990-cı ildə bitirmiş Əmiraslanova Mənsurə Bahadur qızına verilmiş A-015134 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Xırmandalı kənd 1 nömrəli tam orta məktəbi 1985-ci ildə bitirmiş Muxtarzadə Ağarəhim Qəmbər oğluna verilmiş AU-120566 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 107 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Musayev Ramazan Məmməd oğluna verilmiş A-492899 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**178 nömrəli Bakı Orta Texniki Peşə Məktəbi** tərəfindən 1987-ci ildə Safronov Aleksandr Panteleyeviçə verilmiş Б-229114 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** 2 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Quliyeva Şəbnəm İlham qızına verilmiş B-705455 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Şingədulan kənd tam orta məktəb tərəfindən 2014-cü ildə Abbasova İfadə Xansayad qızına verilmiş A-387218 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 1982-ci ildə Cəfərova Bədiyyə Nağı qızına verilmiş ДТ-I-762082 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Mirqurbanlı kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş Həziyeva Nərmin Ədilağa qızına verilmiş A-140582 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qax şəhər** 2 nömrəli məktəb-liseyi 1996-cı ildə bitirmiş Məmmədova Nigar Şükrət qızına verilmiş A-093684 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**“BSB” Tam Orta İnnovasiyalar Məktəbini** 2019-cu ildə bitirmiş Abduyev Turan Sadiq oğluna verilmiş E-231592 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Mehdizadə Əlizamin Şamil oğluna verilmiş E-339757 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** 3 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Rəhimov Ayaz Əziz oğluna verilmiş A-005659 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayonu** Aşağı Göycəli kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Hüseynova Şəlalə Məhərrəm qızına verilmiş B-407452 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayonu** Köçəsgər kənd 2 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş İsmayılov Tural Şahin oğluna verilmiş A-347578 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa şəhər** Texniki humanitar təmayüllü liseyi 2007-ci ildə bitirmiş Qəhrəmanlı Etibar Tahir oğluna verilmiş B-408086 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Poylu kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Abdullayeva (Muğalova) İnci İlqar qızına verilmiş B-408492 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Bəlləbur kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Qənbərova (Rüstəmova) Cəmilə Hacırza qızına verilmiş A-034391 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 7 nömrəli tam orta məktəbi 1995-ci ildə bitirmiş Həbibova Aynurə Ramiz qızına verilmiş A-598297 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 1 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Camalova (Abbasova) Könül Qərib qızına verilmiş B-086265 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 97 nömrəli köçkün tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Yusifov Tural Tapdıq oğluna verilmiş B-639611 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 98 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Əlizadə Nurlan Oqtay oğluna verilmiş A-091850 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 64 nömrəli tam orta məktəbin IX sinfini 2014-cü ildə bitirmiş İsa David Vasif oğluna verilmiş A-436518 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 6 nömrəli orta məktəbi 2013-cü ildə bitirmiş Şahpuri Fəxri İlqar oğluna verilmiş A-263811 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayon** Ərəb kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Məcidova Bahar Zeynal qızına verilmiş A-664243 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** 8 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Nəbiyev Cavid Məmməd oğluna verilmiş B-658921 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 101 nömrəli tam orta məktəbi 2019-cu ildə bitirmiş Əliyeva Zəhra İlham qızına verilmiş C-232556 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası** tərəfindən 2009-cu ildə Abdulov Əli Sakit oğluna verilmiş B-147779 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2008-ci ildə Ayvazova Vüsalə Vilayət qızına verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** 2 nömrəli Bankə qəsəbə tam orta məktəbi 1993-cü ildə bitirmiş Ağayeva Fəridə Ramiz qızına verilmiş A-266161 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Əskərova Polina Zakir qızına verilmiş A-227595 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci** tərəfindən 2007-ci ildə Pənahova Günel Əli qızına verilmiş BB-II-057510 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 10 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Məhərrəmova Fəxriyyə Məmmədağa qızına verilmiş B-153249 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Velədi kənd ümumi orta məktəbi 1993-cü ildə bitirmiş Məmmədova Natəvan Qəhrəman qızına verilmiş 082575 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 67 nömrəli tam orta məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Məhərrəmov Cavid Vidadi oğluna verilmiş C-484224 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Məmmədli Zaur Azər oğluna verilmiş A-034796 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 2007-ci ildə İmanova Yeganə Kinyaz qızına verilmiş BB-II-060838 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Kolleci** tərəfindən 1983-cü ildə Rüstəmova Roza Eldarovnaya verilmiş DT-I-770197 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri Rauf Orucov və kollektivi 2 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəisi Şahin İsrafilova bacısı

**SEVİNC XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin nəzdində Təlimə Dəstək Mərkəzinin kollektivi mərkəzin baş metodisti Cəmalə Balaqadaşovaya anası

**SİMAYƏ BALAQADAŞOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

“Azərbaycan müəllimi” qəzetinin əməkdaşı Şakir Cəfərov Biləsuvar Rayon Təhsil Şöbəsinin sabiq müdiri Balaqardaş Kazımova

**ANASININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İnnovasiyalar və kreativ yanaşmaların simaları

**Son illər ölkəmizin təhsil sistemində inkişaf və innovasiya xarakterli layihələrin, müsabiqələrin həyata keçirilməsi müsbət ənənəyə çevrilib. Artıq 5-ci dəfədir ki, Təhsil Nazirliyinin təşəbbüsü ilə keçirilən təhsildə inkişaf və innovasiyalar üzrə qrant müsabiqələri ümumtəhsil məktəbləri və müəllimlərimizin bu sahədə xüsusi fəallığına səbəb olub. Məktəblərimizə, müəllimlərimizə uğur gətirən bu təşəbbüsün təhsilimizə innovasiyalar, kreativ yanaşmalar vəd etməsi şübhəsizdir. Bu il keçirilən "Təhsildə inkişaf və innovasiyalar üzrə V qrant müsabiqəsi"nin bir neçə qalibi ilə söhbətimizdə də buna əminlik hiss etmək mümkün oldu.**

## V qrant müsabiqəsinin yenilikçi qalibləri ilə tanış olaq



Aynurə Orucova



Aqşin Əliyev



Gülər Bayramova



Kəmalə Nəhmədova

### "Zəfər Dronları"

*Çox əhəmiyyətli və təqdirəlayiq bir haldır ki, 44 günlük Vətən müharibəsi müəllimlərimizin innovativ axtarışlarında da öz əksini tapıb. Bu mənada Gəncə şəhəri M.Füzuli adına 22 nömrəli tam orta məktəbin biologiya müəllimi Aynurə Orucovanın "Zəfər Dronları" layihəsi xüsusi aktuallığı və yeniliyi ilə seçilir. Layihə barədə müəllif dedi:*

- Ölkəmizin təhsil sisteminin və infrastrukturunun inkişaf səviyyəsinin dünyanın aparıcı təhsil sistemlərinin səviyyəsinə çatdırılması 2030-cu ilədək sosial-iqtisadi inkişafın sənədlərində əsas prioritet istiqamətlərdən biri kimi göstərilib. 44 günlük Vətən müharibəsində mühəndis və hərbçilərimizin istifadəsində olan çoxtəyinatlı dronların (PUA) fəaliyyəti, xalqımız, o cümlədən Gəncə məktəbliləri tərəfindən xüsusi maraqla qarşılandı. Bu baxımdan, həsab edirəm ki, şagirdlərin müasir elmi-texniki biliklərinin, yüksək texnologiyalar sahəsinə marağının artırılması, robot texnikası üzrə ilkin prototiplərin hazırlanmasına imkanların yaradılması, innovasiya sahəsində inkişaf meyillərinin əsası orta məktəbdən qoyulmalıdır. Bu bilik və bacarıqları Azərbaycanın təhsil və sosial-iqtisadi inkişafına ilkin investisiya kimi dəyərləndirmək olar. Şagirdlərimizin müasir texnologiya sahəsində əldə edəcəkləri biliklərin onların ixtisaslı mütəxəssis kimi hazırlığında mühüm rol oynayacağını qeyd etmək istərdim. Son dövrlər Azərbaycanda bu sahənin inkişafına maraq artmaqdadır. Gəncə şəhərində sözügedən sahənin inkişafı üçün işlərin aparılması və şagirdlərin potensial imkanlarının inkişaf etdirilməsi nəzərdə tutulub. 44 günlük Vətən müharibəsində Gəncənin-qəhrəman şəhərin sakinləri və şagirdlər bir çox çətinliklərin öhdəsindən gəldilər. Bu gün şagirdlərin innovativ fəaliyyətlərə cəlb edilərək "Zəfər dronları"nı hazırlayıb sülh məqsədi ilə aqrotexniki, turizm, daşımaçılıq və s. kimi sahələrə inteqrasiya etməsi, həm onların istedadlarının aşkarlanmasına, həm psixoemosional davamlılığına, həm də təhsilimizin inkişafına öz töhfələrini verə biləcək. Layihənin məqsəd və vəzifələri Gəncə məktəblilərinin elmi-texniki innovativ istiqamətlərdə fəaliyyətlərə cəlb edilərək müxtəlif təyinatlı dronlar hazırlaması, yarışlarda sınaqdan keçirməsi, bununla da mühəndis-dizayn, rəqəmsal və əməkdaşlıq bacarıqlarını inkişaf etdirməkdir.

Şagirdlərin layihəyə maraqlarının və uyğunluğunu müəyyən etmək üçün onlarla müsahibə keçiriləcək. Ümumtəhsil məktəblərindən 8-13 yaş arası 20 şagird seçildikdən sonra onların 15 günlük təlimlərə hazırlıq prosesi baş tutacaq. Burada şagirdlər təməl kompüter bilikləri ilə təmin olunacaqlar. Təlim müddətində kodlama, proqramlaşdırma və dizayn kimi yüksək səviyyəli tədris veriləcəyi üçün şagirdlər ilkin kompüterdən istifadə bacarıqlarına yiyələnəcəklər. Layihəmiz 4 ay boyunca həm Zoom platforması üzərindən, həm də əyani şəkildə pandemiya qaydalarına uyğun olaraq qruplar şəklində keçiriləcək. Bu təlimlər müddətində şagirdlər çarx, motor, kağız, taxta kimi hissələrdən istifadə edərək Dron hissələri, reaktiv raket, hidravlik körpü, lift sistemi, günəş enerjisi ilə işləyən maşın kimi 3 ölçülü mexanizmlər quracaq və onların iş prinsipini öyrənəcəklər. Dron dizaynı təlimləri müddətində isə şagirdlər "Tinkercad" proqramından istifadə edərək 3D dizaynı öyrənəcəklər. Bu müddət ərzində onlar döngü, koordinatlar, əmrlərin yerinə yetirilməsi və s. kimi proqramlaşdırma terminlərinin iş prinsipini anlayacaq və professional proqramlamaya giriş edəcəklər. Şagirdlər tərəfindən qurulacaq dronlar elə onların özlərinin yazdığı proqram sayəsində işləyəcək. Bundan əlavə, Gəncə şəhərinin fizika, riyaziyyat, texnologiya müəllimlərinə "Təhsildə innovativ istiqamətlər, mühəndis-dizayn düşüncəsi, təhsil Dronları" mövzusunda seminarlar təşkil ediləcək. Şagirdlər hazırladıqları mühəndis-dizayn məhsullarını, Dronlarını nümayiş etdirəcək, yarış uçuşları icra edəcək və Dronlarla əlaqəli təqdimatlarını, ideyalarını səsləndirəcəklər.

### "Zəfər bizimdir"

*V qrant müsabiqəsinin uğurlu layihələrindən biri də "Zəfər bizimdir" layihəsidir. Müsabiqənin qaliblərindən Lənkəran Ləj kənd N.Aslanov adına tam orta məktəbin müəllimi Aqşin Əliyev layihəsi barədə aşağıdakıları bildirdi:*

- Bildiyimiz kimi, məktəblərdə müəllimlər yaxşı dərs oxuyan uşaqlara daha çox diqqət yetirirlər. Ancaq zəif oxuyan və ya heç oxumayanlar isə bəzən diqqətdən kənarda qalır. Bizim bəzən diqqət göstərdiyimiz uşaqlar isə torpaqlarımızın işğaldan azad olunması uğrunda 44 günlük müharibədə düşmənə divan tutub şanlı bir tarix yazdılar. Məhz bu üzdən də bir vətəndaş, bir ziyalı və bir müəllim kimi bu məsələ məni dərindən düşündürməyə başladı: Öz canından keçib şəhid olan və bizi yaşadan Qarabağ müharibəsi iştirakçılarının övladlarını və ya qohumlarını mənən də olsa dəstək məqsədilə "Zəfər bizimdir" layihəsini işləyib hazırladım. Bu layihənin ana xətti Vətən müharibəsi iştirakçılarının övladlarının və ya yaxın ailə üzvlərinin onlayn dərslərə qatılmasına maddi-texniki təminat baxımından dəstək verməkdir. Bildiyiniz kimi, koronavirusla bağlı məktəblərin bağlanması ilə məsafədən dərslərin keçilməsinə başlandı. Lakin rayon və kənd yerlərində dərslərin onlayn tədrisində problemlər yarandı, bəzilərinin onlayn dərs keçmək üçün kompüter və planşet tipli texniki vəsait almaq imkanı yox idi. Bu səbəbdən də mən bu layihə ilə Qarabağ müharibəsi iştirakçılarının övladlarının onlayn və interaktiv dərs keçməsi üçün maddi-texniki təminat problemini həll etməyi qarşıma məqsəd qoydum. Layihə müddətində bu problem öz həllini tapacaq.

Qeyd edək ki, lənkəranlı müəllim "Vətən müharibəsi — Zəfər tarixi" adlı kitab da yazıb. Kitabda 44 günlük Vətən müharibəsinin ilk günlərindən Müzəffər Azərbaycan Ordusunun düşmən üzərində tarixi qələbəsi xronoloji ardıcıllıqla öz əksini tapıb.

### "Gələcəyi kodlaşdıranlar"

*Cəlilabad şəhər akademik Zərifə Əliyeva adına 7 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Gülər Bayramovanın müsabiqəyə təqdim etdiyi layihə "Gələcəyi kodlaşdıranlar" adlanır. Müasir dövrümüzdə çox aktual olan bu sahə şagirdlərin rəqəmsal texnologiyalardan istifadə bacarıq və səriştələrinin təşviqinə və stimullaşdırılmasına əsaslanır:*

- Layihənin məqsədi 4-9 yaşlı uşaqlarda ilkin kodlaşdırma bacarıqlarının inkişaf etdirilməsi və robotlarla kompütersiz işləmək qaydasının öyrədilməsidir. 4 il əvvəl STEAM haqqında ilk dəfə "European Schoolnet" kurslarında məlumat aldım və araşdırarkən bu metodun ölkəmizdə yalnız yuxarı siniflərdə tətbiq olunduğunu öyrəndim. Düşündüm ki, nəyə görə təməldən başlamayaq? Sonra araşdırmamın davamı kimi "Robotik kodlama" ilə tanış oldum və "CodeWeek"də şagirdlərimlə birlikdə qeydiyyat edib müxtəlif tədbirlərə qatıldıq. Çoxlu qarşılıqlı kodlamalar etdik. Sinif otağımızda yerdə kodlama xalçası düzəltdim. Bu, şagirdlərimin o qədər xoşuna gəldi ki, artıq özləri sərbəst kodlama fikirləri qurmağa başladılar. eTwinning layihəsinə qoşulduq, 2020-ci ildə şagirdlərimlə birlikdə 3 milli və 3 Avropa keyfiyyət nişanı aldıq. Bu il STEM, STEAM və kodlaşdırma ilə bağlı 10 layihə işlədik. Dərslərdə 5E modeli ilə kodlama və STEM planları qurub icra etdik. 2020-ci ildə Türkiyənin Harran Universitetinin "Yapay Zeka" adlı 15 günlük, daha sonra Avstraliya səfirliyi və Türkiyənin birgə layihəsi olan "Qızlar üçün STEM Lab" adlı biraylıq təlimlərə qatıldım. Artıq istədiyim fikir üçün məlumatım var idi. Buna görə də V qrant müsabiqəsinə müraciət etdim. Düşünürəm ki, yeniliklər ibtidai sinifdən tətbiq olunmalıdır ki, uşaqlar hər şeydən məlumatlı olsun. İndiki inkişaf da bunları tələb edir.

### "Mini Robotun sərgüzəştləri"

*Cari tədris ilində V qrant müsabiqəsinin qaliblərindən biri də "Mini Robotun sərgüzəştləri" layihəsidir. Layihənin müəllifi Kəmalə Nəhmədova Göygöl rayonu 8 Mart kənd ümumi orta məktəbin kimya müəllimidir.Gənc müəllim layihəsi barədə fikirlərini belə açıqlayır:*

- Ötən il "Təhsildə inkişaf və innovasiyalar üzrə IV qrant müsabiqəsi"ndə STEAM ilə əlaqədər işlədiyim layihəni təqdim etdim. Müsabiqədə qalib gəldim, layihəmə müəllimlərin, şagirdlərin çox böyük maraq göstərdiyini gördüm və bu, məndə cari ildə keçirilən qrant müsabiqəsində də iştirak etməyə motivasiya yaratdı. Günümüzdə robototexnika elmi bir çox sənaye, məişət və sosial problemlərin həlli üçün istifadə edilir. Bu texnologiyaların istehsalçısına çevrilmək üçün şagirdləri kiçik yaşlardan bu istiqamətdə məlumatlandırmaq lazımdır. Dünya ölkələrinin bu sahələrdə inkişafından yararlanaraq gələcəyimiz olan şagirdlərimizi istiqamətləndirmək lazımdır. Bildiyimiz kimi, robototexnika sahəsində yarışlar təşkil edilir. Bu yarışlarda şagirdlərimiz iştirak edərək həm ölkəmizi tanıtdıra, həm də öz bacarıqlarını üzə çıxara bilərlər. Bunun sayəsində robotexnikaya maraq göstərən şagirdlər, gələcəkdə öz avadanlıqlarını kəşf edərək, istehsal edə biləcəklər. Şagirdlərimizin gələcəkdə düzəltdikləri robotexnika avadanlıqları dünya bazarında satışa çıxarıla bilər.

Qrant layihələri müəllimlərimizin inkişafına, özlərini müəyyən sahələrdə kəşf etməyə müsbət təsir göstərir. Gənc müəllimlərin layihələrdə qalib olmasının davamını gözləyirəm. Bütün layihə qaliblərinə uğurlar arzulayıram.

**Oruc MUSTAFAYEV**